**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№366/1** **24 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2023-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı" barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 11.6-cı "Auditorlar Palatasının 2023-cü il üzrə Maliyyə Hesabatlarının hazırlanması və onun auditinin təşkili" və 11.7-ci "Auditorlar Palatasında mühasibat uçotunun və hesabatlılığın mövcud qanunvericiliyə uyğun aparılması" bəndlərinin icrasını təmin etmək məqsədilə Palatanın Maliyyə və texniki təminat idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış Auditorlar Palatasının 2023-cü il üzrə Maliyyə Hesabatlarının "BKR Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aparılmış auditinin nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2023-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı" bəyənilsin (əlavə olunur).

2. "BKR Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti (E.Əliyev) tərəfindən Auditorlar Palatasının 2023-cü il üzrə hazırlanmış Maliyyə Hesabatlarının nəticəsi üzrə göstərilmiş tövsiyələrin reallaşdırılması məqsədilə Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

2.1. Azərbaycan Respublikası Auditorlar Palatasında aparılan maliyyə əməliyyatlarına səmərəli və keyfiyyətli nəzarət sisteminin təşkili və onun təkmilləşdirilməsi təmin edilsin;

2.2. Maliyyə Hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini real vaxt rejimində əks etdirən mühasibat uçotu sistemi təşkil edilsin;

2.3. Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq Auditorlar Palatasının aktivlərinin mühafizə edilməsi təşkil edilsin;

2.4. Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması məqsədilə idarə daxili aparılan əməliyyatlara nəzarət gücləndirilsin və aşkar ediləcək problemlərin həlli istiqamətində əməli tədbirlərin görülməsi üçün təkliflər təqdim edilsin;

2.5. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən Auditorlar Palatasının əmlakının hər il inventarizasiyasının aparılması təmin edilsin;

2.6. Auditorlar Palatasının illik Maliyyə Hesabatlarının auditinin aparılması üçün kənar auditorun seçilməsinə dair təkliflərini hər il 01 noyabr tarixinədək Palatanın Şurasına təqdim etsin;

2.7. cari ilin III rübü ərzində Auditorlar Palatasının bank hesablarının "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətində açılması üçün müraciətin hazırlanması və həmin bank üzrə əməliyyatların 2025-ci il 01 yanvar tarixindən aparılması təmin edilsin;

2.8. Auditorlar Palatasının maliyyə vəziyyəti haqqında hər rüb Palatanın rəhbərliyinə icmal-hesabat təqdim edilsin.

3. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2023-cü il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı"nın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**